BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Humanitar elmlər seriyası* *2015*

**UOT 94(479.24)**

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB RAYONLARI ƏHALİSİNİN TƏHSİL SƏVİYYƏSİ
## (XX əsrin sonu – XXI əsrin əvvəlləri)

**Leyla Vaqif qızı**
***Bakı Dövlət Universiteti***
***leyla-vaqif@mail.ru***

*Məqalədə müstəqillik dövründə 1999 və 2009-cu illərdə keçirilən əhalini siyahıyaalma materialları əsasında Şimal-Qərbi Azərbaycanın əhalisinin təhsil vəziyyəti araşdırılır, təhsili olmayan əhalinin cinslər üzrə təhlili verilir, rayonlar üzrə təhlil aparılır və illər üzrə əhalinin təhsil səviyyəsi müqayisə edilir. Sovet dövründə əhalinin savadlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bu regionda da əhalinin 90%-dən çoxu təhsil almışdır. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra və son illər ərzində təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə etmişdir.*

**Açar sözlər:** məktəb, ali təhsil, şəhər, kənd

Məqalə BDU daxili 50+50 qrant layihəsi əsasında çapa təqdim edilir.

Azərbaycanın şimal-qərb rayonları tarix boyu dövlətçiliyimizin keşiyində dayanmış, həmişə ənənələrə, elmə, mədəniyyətə bağlılığı ilə xüsusi seçilmişdir. Azərbaycanda ilk dünyəvi təhsili burada movcud olmuş Şəki xanının və İlisu sultanının varisləri almışlar. Müqəddəs kitabımız olan Qurani-Kərimi Azərbaycan türkcəsinə tərcümə edən Qafqaz bölgəsinin şeyxulislamı olmuş və təhsilini Şəkidə almış Həsən Şəkuvi idi. Bölgədə fəaliyyət göstərən mədrəsədə bütün İslam dünyasından təhsil almağa gəlirmişlər. Burada dini və dünyəvi təhsil verilirdi. Evlərdə isə pulsuz qız məktəbləri fəaliyyət göstərirdi.

Məlumdur ki, Rusiya imperiyası dövründə əhalinin çox az hissəsinin dünyəvi təhsil almaq imkanı var idi. Buna maddi vəziyyət ilə yanaşı, təhsilin rus dilində aparılması da təsir edirdi. Rusiya imperiyasının tərkibinə daxil olan Şimali Azərbaycanda rus dilində ibtidai məktəblər açılırdı. Birinci qəza məktəbləri Şuşada 1830-cu ildə, Şəkidə 1831-ci ildə, Bakıda 1832-ci ildə, Gəncədə 1833-cü ildə, Şamaxı və Naxcıvanda 1837-ci ildə, Quba və Ordubadda 1856-cı ildə, Zaqatalada isə 1862-ci ildə təşkil olunmuşdur [6, 57].

1917-ci ildə Nuxa qəzasında klassik kişi gimnaziyası, ali ibtidai məktəb və müqəddəs Nina məktəbi, Zaqatala dairəsində professional-texniki məktəb, ali ibtidai məktəb və Marinski qadın peşə məktəbi fəaliyyət göstərirdi. Bu məktəblər region əhalisinin təhsil almasına şərait yaradırdı [5, 59-64].

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bölgədə təhsil alanların səviyyəsi daha da yüksəlmiş, xüsusilə də dəqiq elmlərə meyl artmışdır. Məsələn, 1974-1975-ci illərdə respublika üzrə ümumtəhsil orta məktəblərinin sayı 4199 idi. Məktəblərin ümumi sayına görə regionda birinci yerdə Şəki, ikinci yerdə Qutqaşen (indiki Qəbələ rayonu), üçüncü yerdə isə Zaqatala rayonu idi. Qeyd etmək lazımdır ki, Şəki şəhəri bölgənin digər rayon mərkəzlərindən fərqli olaraq şəhər statusuna malik və respublikanın 8 şəhərindən biri idi. Şəkidən sonra şəhər məktəblərinin sayına görə ikinci yerdə Zaqatala şəhəri gəlirdi. Sovet dövründə demək olar ki, Şəki, Qutqaşen, Zaqatala rayonlarındakı kənd məktəblərinin sayı bərabər idi. İbtidai, natamam və orta məktəblərin ümumi sayına görə də Şəki birinci idi. Bu məsələ ilə baglı bəzi müqayisələr aparmaq maraqlı olardı. Məsələn, 1974-1975-ci illərdə Şəki rayonunda 42 natamam orta məktəbdən 32-i orta məktəb, 10-u ibtidai məktəb idi. Zaqatala rayonunda natamam orta məktəblərin sayı 26, orta məktəblərin sayı 24, ibtidai məktəblərin sayı isə 22 idi. Maraqlıdır ki, 5 rayonda – Balakən, Zaqatala, Qax, Qutqaşen və Şəkidə natamam orta məktəblərin sayı ibtidai və orta məktəblərin sayını üstələyirdi. Yalniz 1 rayonda – Vartaşen (indiki Oğuz) rayonunda orta məktəbin sayı natamam və ibtidai məktəblərin sayından çox idi [7, 73].

Azərbaycanın şimal-qərb rayonlarının əhalisinin təhsil səviyyəsini statistik məlumatlara əsaslanaraq təhlil etdikdə, belə bir nəticəyə gəlirik ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin maariflənməsi, kütləvi savadsızlığın aradan qaldırılması istiqamətində görülən tədbirlər nəticəsində 1930-1970 illərdə bu sahədə ciddi dəyişikliklər baş vermiş, məktəblərin və şagirdlərin sayı artmışdır.

Azərbaycan Respublikasında təhsilin inkişafı qanunvericiliklə tənzimlənir. Eyni zamanda, təhsil dövlətin əsas strateji məsələlərindən biri olduğu üçün əhalinin savadlılıq vəziyyətinin öyrənilməsi daim diqqət mərkəzində olmuşdur. Məhz bu səbəbdən, əhalinin siyahıyaalınması sorğusunda da bu barədə suallar əks olunur. Müstəqil Azərbaycan Respublikasının ilk əhalinin siyahıyaalınması 1999-cu ildə, ikinci dəfə 2009-cu ildə keçirilmişdir. Təhsil göstəriciləri 1999-cu il əhali siyahıyaalma materiallarında yaşı 6 və yuxarı olan əhaliyə uyğun, 2009-cu il əhali siyahıyaalma materiallarında isə 10 yaşdan yuxarı olan əhaliyə uyğun verilir. Hər iki siyahıyaalma materiallarının təhlili və müqayisəsi nəticəsində Şimal-Qərb Azərbaycan əhalisinin təhsil vəziyyətini aydınlaşdıraq.

Cədvəl 1

## Əhalinin təhsil üzrə bölgüsü və yerləşməsi
## (6 yaş və yuxarı, seçmə, 1999-cu il)

| Ərazi | Cəmi | O cümlədən | | | | | | | | | 10 və yuxarı yaşlı savadı olmayanlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsil | Peşə təhsilli | Ibtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar | |
| **Azərbaycan Respublikası** | 7068562 | 573574 | 44022 | 680987 | 2811666 | 920753 | 192189 | 903238 | 814099 | 128034 | 65654 |
| Şəhər əhalisi | 3657949 | 439170 | 34325 | 459309 | 1338333 | 411009 | 103192 | 426470 | 390621 | 55520 | 24147 |
| Kənd əhalisi | 3410613 | 134404 | 9697 | 221678 | 1473333 | 509744 | 88997 | 476768 | 423478 | 72514 | 41507 |
| **Balakən** | 73792 | 3026 | 238 | 6925 | 28679 | 10425 | 4708 | 9746 | 8690 | 1355 | 801 |
| Şəhər əhalisi | 8957 | 731 | 29 | 1334 | 3217 | 1041 | 466 | 1096 | 906 | 137 | 57 |
| Kənd əhalisi | 64835 | 2295 | 209 | 5591 | 25462 | 9384 | 4242 | 8650 | 7784 | 1218 | 744 |
| **Qax** | 45371 | 3402 | 129 | 5940 | 15866 | 5369 | 3330 | 5730 | 5073 | 532 | 273 |
| Şəhər əhalisi | 10614 | 1310 | 48 | 1779 | 3086 | 989 | 970 | 1261 | 1074 | 97 | 54 |
| Kənd əhalisi | 34757 | 2092 | 81 | 4661 | 12780 | 4380 | 2360 | 4469 | 3999 | 435 | 219 |
| **Qəbələ** | 71501 | 3402 | 321 | 5882 | 27360 | 10880 | 3248 | 10145 | 8780 | 1483 | 734 |
| Şəhər əhalisi | 9941 | 925 | 67 | 1625 | 3291 | 1052 | 525 | 1295 | 1026 | 135 | 34 |
| Kənd əhalisi | 61560 | 2477 | 254 | 4257 | 24069 | 9828 | 2723 | 8850 | 7754 | 1348 | 700 |
| **Oğuz** | 31796 | 1918 | 90 | 3322 | 11419 | 4198 | 1898 | 4139 | 4024 | 788 | 487 |
| Şəhər əhalisi | 5721 | 741 | 24 | 898 | 1745 | 582 | 229 | 713 | 710 | 79 | 42 |
| Kənd əhalisi | 26075 | 1177 | 66 | 2424 | 9674 | 3616 | 1669 | 3426 | 3314 | 709 | 445 |
| **Zaqatala** | 95012 | 5286 | 296 | 11213 | 33561 | 13408 | 5953 | 12654 | 11429 | 1212 | 699 |
| Şəhər əhalisi | 23996 | 2441 | 79 | 4156 | 6993 | 2536 | 1753 | 2825 | 2897 | 316 | 186 |
| Kənd əhalisi | 71016 | 2845 | 217 | 7057 | 26568 | 10872 | 4200 | 9829 | 8532 | 896 | 513 |
| **Şəki rayonu:** | 139334 | 6506 | 392 | 13134 | 55362 | 23363 | 4005 | 18142 | 15551 | 2879 | 1782 |
| Şəhər əhalisi: | 56926 | 3720 | 246 | 7016 | 23435 | 7649 | 1253 | 6878 | 5731 | 998 | 559 |
| Kənd əhalisi: | 82408 | 2786 | 146 | 6118 | 31927 | 15714 | 2752 | 11264 | 9820 | 1881 | 1223 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 səh., s.17, 23-24.

1999-cu il əhalini siyahıyaalma materiallarına əsasən yaşı 6-dan yuxarı olan əhalinin təhsil səviyyəsini təhlil etmək mümkündür. Ümumilikdə, 6 rayon üzrə əhalinin 98,96%-nin təhsili var idi. Şəhərlərdə yaşayan 116155 nəfərdən 115223 nəfərinin, kəndlərdə yaşayan 340651 nəfərdən 336827 nəfərinin təhsili var idi. Göstəricilərə rayonlar üzrə nəzər saldıqda, şəhər əhalisi arasında ən yüksək göstərici Qəbələ şəhərində, kənd əhalisi arasında isə Qax rayonunda olmuşdur.

Cədvəl 2

## Daimi əhalinin təhsil səviyyəsinə görə bölgüsü (10 yaş və yuxarı, seçmə, 2009-cu il)

| Ərazi | Cəmi | o cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ali təhsilli | Natamam ali təhsil | Orta ixtisas təhsilli | Orta ümumi təhsilli | Əsas ümumi təhsilli | Peşə təhsilli | İbtidai ümumi təhsilli | Təhsili olmayanlar | Təhsilini göstərməyənlər |
| **Azərbaycan Respublikası** | 7592721 | 831234 | 107308 | 577309 | 3885560 | 911378 | 269442 | 921993 | 17002 | 71495 |
| Şəhər əhalisi | 4078067 | 648556 | 87725 | 397435 | 1897601 | 409701 | 176088 | 423651 | 9810 | 27500 |
| Kənd əhalisi | 3514654 | 182678 | 19583 | 179874 | 1987959 | 501677 | 93354 | 498342 | 7192 | 43995 |
| **Balakən rayonu** | 78883 | 3940 | 405 | 5192 | 45358 | 10662 | 2348 | 10181 | 64 | 733 |
| Şəhər əhalisi | 9165 | 1052 | 85 | 1042 | 4362 | 1150 | 436 | 980 | 12 | 46 |
| Kənd əhalisi | 69718 | 2888 | 320 | 4150 | 40996 | 9512 | 1912 | 9201 | 52 | 687 |
| **Qax rayonu** | 46236 | 5048 | 567 | 6083 | 18988 | 5321 | 4028 | 5677 | 63 | 461 |
| Şəhər əhalisi | 10861 | 1936 | 226 | 1983 | 3547 | 858 | 1147 | 1056 | 42 | 66 |
| Kənd əhalisi | 35375 | 3112 | 341 | 4100 | 15441 | 4463 | 2881 | 4621 | 21 | 395 |
| **Qəbələ rayonu** | 78800 | 4915 | 674 | 5199 | 42693 | 10720 | 2337 | 11391 | 88 | 783 |
| Şəhər əhalisi | 27342 | 2372 | 338 | 2329 | 14476 | 3138 | 959 | 3475 | 45 | 210 |
| Kənd əhalisi | 51458 | 2543 | 336 | 2870 | 28217 | 7582 | 1378 | 7916 | 43 | 573 |
| **Oğuz rayonu** | 34238 | 2709 | 132 | 2978 | 17412 | 4087 | 1752 | 4601 | 58 | 509 |
| Şəhər əhalisi | 6056 | 1043 | 60 | 914 | 2485 | 596 | 259 | 640 | 14 | 45 |
| Kənd əhalisi | 28182 | 1666 | 72 | 2064 | 14927 | 3491 | 1493 | 3961 | 44 | 464 |
| **Zaqatala rayonu** | 102799 | 7172 | 926 | 8602 | 53179 | 13560 | 5272 | 13422 | 45 | 621 |
| Şəhər əhalisi | 27087 | 3226 | 369 | 2982 | 12700 | 2759 | 1826 | 3011 | 21 | 193 |
| Kənd əhalisi | 75713 | 3946 | 557 | 5620 | 40479 | 10801 | 3446 | 10411 | 24 | 428 |
| **Şəki rayonu** | 145754 | 9933 | 1321 | 15366 | 70819 | 22847 | 4867 | 18702 | 146 | 1753 |
| Şəhər əhalisi | 57213 | 5818 | 764 | 8722 | 26986 | 6299 | 1891 | 6145 | 71 | 517 |
| Kənd əhalisi | 88541 | 4115 | 557 | 6644 | 43833 | 16548 | 2976 | 12557 | 75 | 1236 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il, Bakı, "9 saylı kiçik müəssisə" nəşriyyatı, 2010, cild 1, 580 səh., s.56,74-75,93-94,95-96,105-106,112-113,120-121

2009-cu il əhalini siyahıyaalma materiallarına əsasən, region əhalisinin ümumi savadlılıq vəziyyətinə nəzər salaq. Bu materiallara əsasən deyə bilərik ki, 10 və yuxarı yaşda olan əhalinin Şəki rayonunda 99%-i, Zaqatala rayonunda 99,96%-i, Qəbələ rayonunda 99,89%-i, Qax rayonunda 99,87%-i, Balakən rayonunda 99,92%-i, Oğuz rayonunda 99,84%-i təhsil almışdır. Ümumilikdə, 6 rayon üzrə əhalinin 99%-i təhsil almışdır. 116155 nəfər şəhər əhalisinin 115223 nəfərinin, 340651 nəfər kənd əhalisinin 336807 nəfərinin təhsili var idi. Təhsili olan 486246 nəfərdən 247.660 nəfəri qadın olmuşdur.

Əhalinin təhsil vəziyyəti şəhər və kənd üzrə fərqlidir. Region üzrə 1999-cu ildə əhalinin 25,4%-i şəhərlərdə, 74,5%-i kəndlərdə, 2009-cu ildə 28,2%-i şəhərlərdə, 71,7%-i kəndlərdə məskunlaşmışdı [3, 17-123; 4, 56-121]. Təhsil alanların əsas hissəsini orta ümumi təhsil alanlar təşkil etmişdir. Adətən, kənd əhalisi, əsasən, orta ümumi təhsil kifayət edən kənd təsərrüfatı sahələrində çalışır.

Ona görə də, kənd təsərrüfatı sahəsində çalışanlar arasında ali təhsili olanlar azlıq təşkil edirdi. Məlumdur ki, ali təhsil ixtisaslarına daha çox şəhərlərdə ehtiyac vardır. Azərbaycan Respublikası üzrə göstəricilər də bunu

təsdiq edir. Məsələn, 2009-cu ildə respublika üzrə 831234 nəfər ali təhsilli əhalinin 648556 nəfəri şəhərdə, 182678 nəfəri kənddə yaşayırdı. Lakin maraqlıdır ki, ümumilikdə götürdükdə əhalinin əsas hissəsi kəndlərdə məskunlaşdığı üçün şəhərlərdə vəziyyət fərqli olmuşdur. Məsələn, 1999-cu il materiallarına əsasən region üzrə ali təhsili olanların 46%-ni şəhər əhalisi, 54%-ni kənd əhalisi təşkil edirdi [3]. 2009-cu il materiallarına əsasən, ali təhsil alanlar Şəkidə şəhərdə, Zaqatala, Qəbələ, Qax, Balakən və Oğuzun kəndlərində məskunlaşmışlar [4].

Ali təhsili olanlar region üzrə 1999-cu ildə 456806 nəfərin 5,15%-ni, 2009-cu ildə 486710 nəfərin 6,9%-ni, şəhər əhalisinin 11,2%, kənd əhalisinin 5,2%-ni təşkil etmişdir. Buna baxmayaraq, 1999-cu il materialları əsasında belə qənaətə gəlirik ki, kənd əhalisi arasında Şəkidə 82.408 nəfərdən 1223 nəfərin – 1,48%, Qəbələdə 61560 nəfərdən 700 nəfərin – 1,37%, Balakəndə 64835 nəfərdən 744 nəfərin – 1,14%, Oğuzda 26075 nəfərdən 445 nəfərin – 1,7% savadı yox idi. Şəhər əhalisi arasında savadı olmayanlar daha az idi. Məsələn, Şəkidə 56926 nəfərdən 559 nəfərinin, Zaqatalada 23.996 nəfərdən 186 nəfərinin təhsili yox idi [1999]. Ümumiyyətlə, təhsili olmayanlar 1999-ci ildə əhalinin 1,04%-i, 2009-cu ildə 0,09%-ni təşkil edirdi. 2009-cu il siyahıyaalma materiallarına əsasən kənd əhalisi arasında təhsili olmayanlara aid göstəricilər aşağıdakı kimi olmuşdur:

Şəkidə 88541 nəfərin 75 nəfəri (0,08%; 23 kişi, 52 qadın);

Qəbələdə 51458 nəfərin 43 nəfəri (0,08%, 20 kişi, 23 qadın);

Balakəndə 69718 nəfərin 52 nəfəri (0,07%, 23 kişi, 29 qadın);

Oğuzda 28182 nəfərin 44 nəfəri (0,15 %, 14 kişi, 30 qadın).

Şəhər əhalisi arasında təhsili olmayanlar əsasən Qəbələdə (45 nəfər – 17 kişi, 28 qadın) və Qaxda (42 nəfər – 19 kişi, 23 qadın) olmuşdur.

Region üzrə təhsili olmayan əhalini cinslər üzrə təhlil edək. 2009-cu il əhalini siyahıyaalma materiallarına əsasən təhsili olmayan kişilər yaşı 10-dan yuxarı olan əhalinin ümumi sayına nisbətdə Qəbələdə daha çox olub: 39495 nəfərin 27 nəfəri (0,09%).Qaxda 22.188 nəfərdən 27 nəfər kişinin (0,12 %), Balakəndə isə 38400 nəfərdən 27 nəfər kişinin (0,07%) təhsili yox idi. Qəbələdə 39305 nəfər qadından 51 nəfərinin (0,12%), Oğuzda isə 17.208 nəfər qadından 39 nəfərinin (0,22%) təhsili yox idi.

Azərbaycanın şimal-qərb rayonlarının əhalisinin təhsil səviyyəsini statistik məlumatlara əsaslanaraq təhlil etdikdə belə bir nəticəyə gəlirik ki, region əhalisi hər zaman təhsilə, maariflənməyə üstünlük vermişdir. Sovet dövründə əhalinin savadlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bu regionda da məktəblər və kitabxanaların sayı artmış, əhalinin 90%-dən çoxu təhsil almışdır. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət əhalinin savadlanması üçün yeni istiqamətlər müəyyənləşdirmişdir. Təhsil əsas strateji məsələ olduğu üçün, dövlət əhalinin təhsil səviyyəsini artırmağı daim diqqət mərkəzində saxlayır. Buna uyğun olaraq, 2013-cü il 24 oktyabr tarixli Təhsilin inkişafı üzrə dövlət strategi-

yasında göstərilir ki, təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir. Eyni zamanda, əhalinin məşğulluğu onun təhsili ilə birbaşa əlaqəlidir. Məhz bu səbəbdən də Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramında əmək bazarının tələblərinin nəzərə alınması əsas vəzifələrdən biri kimi qeyd olunur.

Təklif edərdik ki, bölgənin rayonlarının inkişafı üçün zəruri olan ixtisaslar müvafiq icra hakimiyyətləri tərəfindən müəyyən edilsin. Gənclərin bu ixtisaslar üzrə peşə təhsili və ali təhsil almaları üçün güzəştlər tətbiq oluna bilər.

Digər təklifimiz isə belədir ki, ali təhsil müəssisələri həmin rayonlardan olan gənclərin istehsalat təcrübələri, fərdi işləri və buraxılış işlərinin yazılması bir başa rayon icra hakimiyyətlərinin iştirakı ilə aparılsın. Bu da, təhsillərini başa vurduqdan sonra onların işlə təmin olunması üçün də əhəmiyyətli ola bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan SSR Nazirlər Soveti yanında Mərkəzi Statistika İdarəsi. 1968-ci ildə Azərbaycan SSR Xalq Təsərrüfatı. Statistika Külliyyatı. Bakı: 1970, 500 s.
2. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı. Sənədlər. Sərəncamlar // http://www.president.az/articles/3565
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il. Bakı: Səda, 2000-2001.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il. Bakı: 9 saylı kiçik müəssisə, 2011.
5. Quliyeva S.Z. Oğuz (Vartaşen) rayonunun əhalisinin təhsil vəziyyəti (1930-1999-cu illər). “Geo Strategiya” ictimai-siyasi,elmi-populyar jurnal, № 05 (23) sentyabr-oktyabr, Bakı-2014, s.59-64
6. Leyla Vaqif qızı. Azərbaycanın Şimal-Qərbində yerləşən rayonlarının təhsil səviyyəsi (1940-1970-ci illər). “Geo Strategiya” ictimai-siyasi, elmi-populyar jurnal, noyabr-dekabr, № 6, Bakı: 2014, s. 57
7. Народное образование наука и культура в Азербайджанской ССР. Статистический сборник Баку, 1975 Дневные образовательные школы по городам в начале 1974/75 учебного года, 331с.


## УРОВЕНЬ ОБРАЗОВАНИЯ НАСЕЛЕНИЯ СЕВЕРО-ЗАПАДНЫХ РАЙОНОВ АЗЕРБАЙДЖАНА
### (Конец XX века – XXI вв)


**ЛЕЙЛА ВАГИФ КЫЗЫ**



**РЕЗЮМЕ**

В статье на основе материалов переписи населения,проведенного в период независимости с 1999 по 2009 гг. на Северо-Западе Азербайджана, выясняется образовательный статус населения, ведется анализ необразованного населения по половому призна-

ку, проводится сравнение статуса образования населения по районам и по годам. В результате проведенных мероприятий, направленных на повышение уровня грамотности в Советский период, более 90% населения этого региона получили образование. После восстановления независимости Азербайджанской Республики, а также в последние годы были получены значительные достижения в области развития образования.

**Ключевые слова:** школа, высшее образование, город, село

**THE LEVEL OF EDUCATION**
**OF THE NORTH-WESTERN REGIONS OF AZERBAIJAN**
**(The end of the XX century - the XXI century)**

**LEILA VAGIF KIZI**

**SUMMARY**

On the basis of the census of population of the North-Western regions of the Azerbaijan Republic carried out during the period from 1999 to 2009, the level of education is analyzed, and there is provided a juxtaposition of educational status of population by regions. As the result of the measures taken in order to improve the level of education during the Soviet period, over 90% of population had obtained education. After the recovery of independence of the Azerbaijan Republic, as well as in recent years there have been significant achievements in the field of education.

**Key words:** schools, education, city, willage